

**Nəbiyev Cilingir Azad oğlu**

Cilingir Azad oğlu Nəbiyev 1996-cı il sentyabrın 1-də Tovuz rayonunun Şıxheybət kəndində anadan olub. 2013-2015-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Kollecində "Texnologiya müəllimliyi" üzrə təhsil alıb.

Cilingir Nəbiyev 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2017-ci ildən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi. Azərbaycan Ordusunun giziri olan Cilingir Nəbiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Cilingir Nəbiyev oktyabrın 27-də Qubadlı döyüşləri zamanı şəhidlik zirvəsinə yüksəlib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə gizir Nəbiyev Cilingir Azad oğlu "Vətən uğrunda", “Cəbrayılın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilmişdir.